**Fəxri Rasim oğlu SƏTTƏROV**
Azərbaycan Dövlət Neft və Sənaye Unversitetinin doktorantı,
AZ 1010, Azadlıq prospekti. 34, Bakı, Azerbaijan
E-mail: fakhrisattarov@gmail.com

# Azərbaycanda monetar siyasətin müasir vəziyyətinin təhlili

## Xülasə

*Tədqiqatın məqsədi* Azərbaycanda monetar siyasətin müasir vəziyyətinin təhlilinin aparılmasından ibarətdir. Bu məqsədlə monetar siyasətin xüsusiyyətləri araşdırılmış və mahiyyəti açıqlanmışdır. Azərbaycanda monetar siyasətin formalaşdırılması və inkişaf etdirilməsi prosesləri təhlil olunmuşdur. Monetar siyasətin müxtəlif alətlərinin, o cümlədən, qiymətli kağızların, valyuta müdaxiləsinin rolu baxılmışdır. Dünya təcrübəsində mövcud olan monetar siyasət alətlərinin məqsədləri fə funksiyaları ümumiləşdirmişdir. Müasir şəraitdə Azərbaycanda qlobal maliyyə transformasiyaları kontekstində monetar siyasətin təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

*Tədqiqatın metodu* kimi məqalənin hazırlanmasında müxtəlif elmi metodlardan, o cümlədən, analiz, sintez, statistika və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Bunlara yanaşı, monetar siyasətin müasir problemlərinə və həlli yollarına dair elmi əsərləri olan bir sıra təfqiqatçıların yanaşmaları nəzərə alınmışdır.

*Tədqiqatın nəticələri* yeni çağırışlar və iqtisadi-maliyyə transformasiyaları şəraitində Azərbaycanda monetar siyasətin mexanizm və alətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyət strategiyalarının hazırlanmasında istifadə oluna bilər.

***Açar sözlər*:** Azərbaycan, monetar siyasət, qiymətli kağızlar, valyuta müdaxiləsi, monetar siyasətin əsas funksiyaları, monetar siyasətin təkmilləşdirilməsi perspektivləri.

**UOT:** 339.74
**JEL:** E5; E55; E63
**DOI:** https://doi.org 10.54414/HMKB9640

## Giriş

COVID-19 pandemiyasının nəticələrinin yaratdığı sosial-iqtisadi böhran bütün dünya ölkələrində iqtisadi fəallığın əhəmiyyətli dərəcədə azalmasına və işsizliyin artmasına səbəb olub. Bu baxımdan mərkəzi banklar və hökumətlər qarşısında tətbiq olunan monetar siyasətin təkmilləşdirilməsi vəzifəsi durur. Müasir şəraitdə makroiqtisadi siyasətin ən önəmli elementlərindən biri məhz Mərkəzi Banka işgüzar fəaliyyətə təsir göstərməyə, pul dövriyyəsinin, qiymətlərin sabitləşməsinə, qiymətli kağızlar bazarının inkişafına, iqtisadi artıma nail olmağa imkan verən monetar siyasətdir. Monetar siyasət milli valyutanın sabitliyini, tədiyyə balansını, qiymətləri, maliyyə bazarında pul kütləsini, iqtisadi artımı, investisiya fəallığını, makroiqtisadi və maliyyə sabitliyini təmin etməyə yönəlmiş metodlar, alətlər və tədbirlər məcmusudur. Monetar siyasətin reallaşdırılması mərkəzi bank tərəfindən pul sisteminin hədəflərinin müəyyənləşdirilməsini və pul kütləsinin tənzimlənməsini - hədəflənməni nəzərdə tutur. Monetar siyasət qiymət sabitliyinə, tam məşğulluğa və real istehsalın artırılmasına nail olunması məqsədilə tədavüldəki pul kütləsinə təsir edən dövlət siyasətidir. Monetar siyasət iqtisadi siyasətin ən önəmli tərkib hissələrindən olmaqla, konkret ölkənin

iqtisadi şəraiti üçün xarakterik olan bir sıra vəzifələrin hazırlanmasına və reallaşdırılmasına yönəlmişdir. Onlar eyni dərəcədə əhəmiyyətə malikdirlər və şübhəsiz ki, əlaqəlidirlər.

**Hazırkı şəraitdə monetar siyasətin müasir inkişaf prosesləri və mexanizmlərinin təhlili**

İqtisadi proseslərin dövlət tənzimlənməsinin əsas aləti kimi çıxış edən monetar siyasət pul kütləsinin həcmi, inflyasiyanın səviyyəsi, dövlət və yerli büdcələrin həcmi və s. kimi bir çox makroiqtisadi göstəricilərin səviyyəsini müəyyənləşdirir: Əsaslı və balanslaşdırılmış monetar siyasət ümumi iqtisadi məqsədlərə nail olmağa kömək edir, böhranlı iqtisadi hadisələri minimuma endirməyə və sosial-iqtisadi inkişafı yaxşılaşdırmağa imkan verir [1, s.50]. Bu faktlar effektiv monetar siyasətin təkmilləşdirilməsinin mahiyyətinin və aspektlərinin öyrənilməsinin aktuallığını vurğulayır.

Monetar siyasətin mahiyyəti məqsədlərin, vəzifələrin və onlara nail olmaq mexanizminin müəyyən edilməsindən keçir. İnkişaf etmiş iqtisadiyyatda monetar siyasəti aparanlar şərti olaraq iki qrupa bölünən bir sıra institutlardır: a) əsas məqsədi dövlət adından monetar siyasəti aparmaq olan qurumlar (demək olar ki, dünyanın bütün ölkələrində bu, mərkəzi bankdır); b) monetar siyasətin aparılması prosesində dolayısı ilə iştirak edən qurumlar. Bu qurumlar arasında əsas yeri Mərkəzi Bank tutur, çünki dövlətin monetar siyasətinin təcrübədə reallaşdırılmasının koordinatoru məhz odur. Bu baxımdan monetar tənzimləmə monetar siyasətin aparılması aləti kimi çıxış edir. Monetar tənzimlənmə zamanı qarşıya qoyulan məqsədlərə nail olmaq üçün Mərkəzi Bankın pul sisteminə (dövriyyədə olan pul vəsaitlərinin həcminə, bank sisteminin likvidliyinə) birbaşa və ya dolayı təsiri prosesini başa düşmək məqsədəuyğundur.

Odur ki, pul-kredit orqanları monetar siyasət alətlərinin tətbiqi ilə iqtisadiyyata təsir göstərir, onun hüquqi sahəsini formalaşdırır, müəyyən maliyyə bazarı alətlərinin istifadəsinə müəyyən məhdudiyyətlər tətbiq edirlər. Ortamüddətli perspektivdə Mərkəzi Bank mövcud bank sisteminin sabitləşməsinin təmin edilməsinə yönəlmiş bütün mövcud metodlardan istifadə etmək niyyətindədir, ölkənin monetar siyasəti necə reallaşdıracağı və gələcəyi bundan asılıdır. Monetar siyasətin son məqsədləri: a) qiymət sabitliyi; b) əmək qabiliyyətli əhalinin tam məşğulluğu; c) istehsalın real həcminin artımı; ç) ölkənin tədiyə balansının sabitliyi və s.

Ölkədə qeyri-inflyasiyalı iqtisadi artıma nail olmaq üçün pul kütləsinin və dəyərinin tənzimlənməsi üçün effektiv vasitələrdən istifadə etmək monetar siyasətin əsas məqsədlərindəndir [2, s.10; 3, s.211]. Monetar siyasətlə bağlı iki əsas anlayışdan istifadə olunur: kredit ekspansiyası siyasəti, yaxud ucuz pul siyasəti; kreditin məhdudlaşdırılması siyasəti və ya bahalı pul siyasəti. Bu qeyd olunan siyasətlərin hər birinə daha yaxından nəzər salaq: 1. Ucuz pul siyasəti. İqtisadi tənəzzül olanda və işsizlik səviyyəsi kifayət qədər yüksək olanda dövlət ucuz pul siyasətindən istifadə edir. Belə siyasətin əsas məqsədi ümumi xərcləri, investisiyaları, istehsalı və məşğulluğu artırmaq, yəni kredit pulunu ucuzlaşdırmaqdır. Kommersiya bankları üçün kreditlər üzrə uçot faizinin aşağı salınması, dövlət qiymətli kağızlarının açıq bazarda alınması – ucuz pul siyasətinin aparılmasının əsas yollarıdır. 2. Bahalı pul siyasəti. İnflyasiyanın azaldılması və ümumi xərclərin azaldılması, pul kütləsinin məhdudlaşdırılması bu siyasətin əsas məqsədidir. Uçot dərəcəsinin artırılması, dövlət qiymətli kağızlarının satışı, məcburi ehtiyat normasının artırılması siyasət çərçivəsində əsas tədbirlərdir. Hər bir siyasət kimi, monetar siyasətinin də müsbət və mənfi cəhətləri var. Sürət və çeviklik, fiskal siyasətlə müqayisədə daha az olan siyasi təzyiqdən asılılıq güclü tərəflərdir. Tsiklik asimmetriya monetar siyasətin reallaşdırılmasında problemlər yaradır [4, s. 223].

Monetar siyasətin effektivliyi bilavasitə onun subyektləri tərəfindən bu vəzifələrin sistemli

şəkildə yerinə yetirilməsindən asılıdır. Monetar siyasətin əsas obyektləri pul təklifi və ona tələbdir. Müasir iqtisadiyyatda pul təklifi Mərkəzi Bank tərəfindən tənzimlənir və dövriyyədə olan pulun miqdarına nəzarət edən həmin bankdır. Lakin pul kütləsinin özü Mərkəzi Bankın köməyi ilə bərabər, kommersiya banklarının köməyi ilə, onların fəaliyyətləri zamanı yaradılır. Monetar siyasətin hədəflənməsi ən az vəsaitdən istifadə etməklə ən yaxşı nəticələr əldə etmək məqsədilə lazım olan vəzifələri reallaşdırmaq deməkdir. İlk dəfə olaraq, "Monetar siyasətinin məqsədi" konsepsiyasını Jan Tinbergen təqdim etdi və o, həmin siyasətin hədəf dəyişənlərinin strukturunu ayırıb.




**Şəkil 1. Monetar siyasətin məqsədlərinin iyerarxiyası (mənbə: müəllif tərəfindən tərtib edilib).**

Qeyd edək ki, bütün məqsədlər müəyyən bir iyerarxik struktur təşkil edir, onun hər bir komponenti digər komponentlərlə qarşılıqlı əlaqədə olur və onlara tabe olur. Bu məqsədlərin reallaşdırılmasının istənilən səviyyəsində onlar daha yüksək səviyyəli məqsədlərə nail olmaq üçün tənzimlənir. İqtisadi tənzimlənmənin son məqsədi makroiqtisadi tarazlığa nail olmaqdır. Məsələn, yekun məqsədlərə aşağıdakılar daxildir: əhalinin tam məşğulluğu, real istehsalın artırılması, qiymətlərin sabitləşməsi, tədiyyə balansı. Bir çox ölkələrdə son məqsəd milli valyutanın sabitliyinə nail olmaqdır. Növbəti addım monetar siyasətin cari, daha konkret məqsədlərinə çatmağa yönəlmiş aralıq məqsədlərdir. Monetar siyasətin aralıq məqsədlərinə valyuta məzənnəsinin sabitliyinin təmin edilməsi, inflyasiyanın hədəflənməsi daxil ola bilər. Aralıq məqsədlərin seçilməsi iqtisadiyyatın dövlət tənzimlənməsinin dərəcəsindən və Mərkəzi Bankın qarşısında duran funksiya və vəzifələrdən asılıdır. Məqsədlərin sonuncu qrupu monetar siyasətin operativ (taktiki) məqsədləridir ki, onlara açıq bazarda gündəlik cari əməliyyatlar vasitəsilə nail olunur. Həmçinin, monetar siyasətin məqsədləri iqtisadi və ya sosial məqsədlər ola bilər. İqtisadi məqsədlər iqtisadiyyatın sabit inkişafının saxlanmasına, iqtisadi artımın, iqtisadi fəallığın təşviqinə, işsizliyin azaldılmasına yönəldilmişdir. Bunlara daxildir: ÜDM artımı, maliyyə, valyuta və qiymət sabitliyi.

**Yaxın perspektivdə ölkəmizdə monetar siyasətin təkmilləşdirilməsi problemləri və istiqamətləri**

Məlumdur ki, makroiqtisadi tarazlığın reallaşdırılması üçün monetar siyasətin əhəmiyyəti onun məqsədlərinin qanunvericiliklə konsolidasiyasını əvvəlcədən müəyyən etmişdir. Mərkəzi Bankın fəaliyyəti milli bank sisteminin inkişafını və möhkəmlənməsini, hesablaşmaların fasiləsiz aparılmasını, ölkənin ödəniş sisteminin lazımi səviyyədə işləməsini təmin edir. Bu fəaliyyətlər adətən monetar siyasət məqsədləri iyerarxiyasına daxil edilmir. Lakin bank sisteminin sabitliyinin aşağı düşməsi,

banklarda likvidliyin olmaması kredit bazarlarını iflic vəziyyətinə sala və monetar siyasətin effektivliyini kəskin şəkildə zəiflədə bilər. İqtisadi artımın maliyyələşdirilməsində bank sisteminin rolu kifayət qədər böyük olduğundan, həmin siyasətin son məqsədləri sırasına daxil etmək və bank sektorunda sabitliyi qorumaq mümkündür. Azərbaycanın monetar siyasəti iqtisadi inkişaf və sosial sabitliyə nail olmaq üçün belə şəraitin yaradılmasında önəmli rol oynayır, məsələn, aşağı inflyasiya, əmanətləri amortizasiyadan qoruyan və investisiyaların planlaşdırılması üçün zəruri olan müəyyən faiz dərəcələri [5]. Dünya təcrübəsində monetar siyasət alətlərini 3 qrupa bölmək olar: 1. Məcburi ehtiyat normasının dəyişməsi. 2. Faiz siyasəti. 3. Açıq bazar əməliyyatları.

Monetar siyasətin birbaşa və dolayı üsullar var. Mərkəzi Bankın tələb və normaları birbaşa metodlar kimi təsnif edilir. Kommersiya banklarında olan məcburi ehtiyat norması, kredit portfelinə qoyulan məhdudiyyətlər və depozitlərin cəlb edilməsi birbaşa metodlar adlanır. Bu cür metodların köməyi ilə tez effekt əldə edilə bilir. Dolayı metodların köməyi ilə bazar vəziyyətinə təsir etmək mümkündür. Onların arasında açıq bazarda əməliyyatlar, yəni qiymətli kağızların və valyutaların alqı-satqısı xüsusilə fərqlənir [6, s.325]. Ümumilikdə, Mərkəzi Bankın monetar siyasətinin əsas alətləri və üsulları bunlardır: 1) Məcburi ehtiyat tələbləri; 2) Mərkəzi Bankın əməliyyatları üzrə faiz dərəcələri; 3) Öz adından istiqrazların buraxılması; 4) Valyuta intervensiyaları; 5) Açıq bazar əməliyyatları; 6) Pul kütləsinin artımı üçün meyarların müəyyənləşdirilməsi; 7) Kredit təşkilatları üzrə yenidən maliyyələşdirmə; 8) Birbaşa kəmiyyət məhdudiyyətləri; 9) Mərkəzi Bank tərəfindən müəyyənləşdirilmiş digər alətlər. Monetar siyasətin bu və ya digər alət və metodundan istifadə edərkən onların hansı məqsədlər güddüyünü müəyyənləşdirmək lazımdır [7, s.33].

Bütün dünyada monetar orqanlar tərəfindən istifadə olunan və səmərəli şəkildə tətbiq edilə bilən monetar siyasətin əsas alətlərini qısaca təhlil edək. Monetar siyasətin birinci aləti məcburi ehtiyat tələblərinin dəyişdirilməsi prosesidir. Məcburi ehtiyatlar kommersiya bankının öhdəliklərinin faizini təşkil edir. Kommersiya bankları bu ehtiyatları mərkəzi bankda saxlamağa borcludurlar. Tarixən məcburi ehtiyatlara mərkəzi banklar tərəfindən əmanətlərin tükənməsi halında kommersiya banklarını kifayət qədər likvidliklə təmin etmək, müflisləşməsinin qarşısını almaq və bununla da onların müştərilərinin, əmanətçilərinin və müxbirlərinin maraqlarını qorumaq üçün iqtisadi alət kimi baxılmışdır. Lakin hazırda məcburi ehtiyat norması monetar sferanı tez tənzimləmək üçün istifadə olunan ən sadə alət kimi istifadə olunur. Bu monetar siyasət alətinin fəaliyyət mexanizmi belədir: ehtiyat norması Mərkəzi Bank tərəfindən artırılarsa, bu, kommersiya banklarının apardıqları kredit əməliyyatlarına görə istifadə edə biləcəyi izafi ehtiyatlarının azalmasına gətirib çıxarır. Müvafiq olaraq, bu, pul kütləsində multiplikatorun azalmasına səbəb olur, çünki bu norma dəyişdikdə, depozit multiplikatorunun dəyəri dəyişir; ehtiyat norması azaldıqda pul kütləsinin həcminin multiplikativ genişlənməsi baş verir. Məcburi ehtiyat normasındakı dəyişikliklər Mərkəzi Banka pul kütləsini tənzimləməyə kömək edir. Ehtiyat normasının artması ilə kommersiya bankları kredit vermək üçün lazım olan vəsaitdə azalma yaşayır, ehtiyat normasının azalması ilə isə bankların verilən kreditin həcmini genişləndirmək üçün daha çox maliyyə imkanları yaranır [8, s.171-172]. Mütəxəssislərin fikrincə, monetar siyasətin bu aləti ən güclüdür, məcburi ehtiyat normasının cüzi dəyişməsi belə bank ehtiyatlarının həcmində və kommersiya banklarının kredit siyasətində əhəmiyyətli dəyişikliklərə səbəb ola bilər. Ehtiyatın formalaşması müəyyən dərəcədə kommersiya bankının likvidliyinə riayət olunmasına təminat verir, lakin bu ehtiyatın bütün məbləği yalnız bank öz öhdəliklərini yerinə yetirmək üçün fəaliyyətini dayandırdıqda istifadə olunur.

Beləliklə, Mərkəzi Bankda formalaşan ehtiyat fondu ölkənin bütün bank sistemi üçün fonddur və konkret bankın likvidliyini deyil, ümumi bank likvidliyini təmin etməyə xidmət edir. Məcburi ehtiyat normasının dəyişməsi pul kütləsinə multiplikator vasitəsilə təsir göstərir.

Ümumiyyətlə, kredit təşkilatlarının kredit imkanlarının (yəni ehtiyatlarının) dəyərinin dəyişməsi pul bazasının dəyərinin dəyişməsinə, bank multiplikatorunun dəyişməsi isə pul multiplikatorunun dəyişməsinə səbəb olur. Mərkəzi Bank pul kütləsində əhəmiyyətli genişlənmə və ya daralmalara nail olmaq istədikdə ehtiyat tələbləri dəyişir. Xüsusi vurğulamaq lazımdır ki, məcburi ehtiyat normasının azalması dövriyyədə olan pul kütləsinin artmasına güclü təsir göstərməsə də, depozit hesablarının artmasında önəmli rol oynaya bilir. Beləliklə, aydın olur ki, monetar siyasətin bu aləti ölkə iqtisadiyyatına nəinki birbaşa təsir göstərə bilər, həm də pul bazasında digər iqtisadi göstəricilərin müəyyənləşdirilməsində əhəmiyyəti ilə ona dolayı təsir göstərə bilər. Monetar siyasətdə ikinci alət yenidən maliyyələşdirmə dərəcəsi (uçot dərəcəsi) və onun dəyişməsidir. Yenidən maliyyələşdirmə faiz dərəcəsi Mərkəzi Bankın kredit təşkilatlarına kredit verdiyi faiz dərəcəsidir. Kommersiya bankları bu cür kreditlərə yalnız ehtiyatın təcili doldurulması zərurəti ilə üzləşdikdə və ya mövcud çətin maliyyə vəziyyətindən çıxdıqda müraciət edirlər. Mərkəzi Bankdan uçot dərəcəsi əsasında alınan vəsaitlər kredit təşkilatlarının əlavə ehtiyatlarıdır, pul kütləsinin multiplikativ artımının əsasını təşkil edir. Odur ki, Mərkəzi Bank uçot dərəcəsi dəyişdikdə pul kütləsinə təsir edir. Kommersiya bankları uçot dərəcəsini ehtiyatların əldə edilməsi ilə bağlı xərc kimi qəbul edirlər. Uçot dərəcəsi nə qədər yüksək olarsa, onların kreditlə ala biləcəkləri məbləğ, kommersiya banklarının verdiyi kreditlərin həcmi isə bir o qədər az olar. Və bankların kredit imkanlarının azalması ilə pul kütləsinin dəyəri də azalır. Kommersiya bankları uçot fazi dərəcəsi aşağı düşdüyü təqdirdə Mərkəzi Bankdan daha çox kredit almağa başlayır. Onların kredit imkanları genişlənir, pul bazası artır, iqtisadiyyatda pulun multiplikativ artımı müşahidə olunur.

Pul kütləsinə nəzarətin ən mühüm və operativ vasitəsi açıq bazar əməliyyatlarıdır ki, bu əməliyyatlar Mərkəzi Bank tərəfindən təkrar QKB-də dövlət qiymətli kağızları paketlərinin alqı-satqısı prosesləridir. Açıq bazarlarda əməliyyatların obyektləri: müxtəlif növ qısamüddətli dövlət istiqrazları; müxtəlif növ xəzinə veksellər. Bank məhsullarının keyfiyyətinin yüksəldilməsi dövlətin monetar siyasətinin səmərəliliyinin artırılmasının mühüm şərtlərindən biridir. Müasir reallıqlarda bank işində qabaqcıl texnologiyaların daha geniş tətbiqi hesabına bankların bank xidmətlərinin keyfiyyətinin yüksəldilməsinə təsiri artır. Məsələn, kredit təşkilatlarına distant bank xidmətlərindən istifadə hüququ verilmişdir ki, bu da həmin xidmətlərin əlçatanlığını artırmağa və maya dəyərini azaltmağa kömək edir. Ölkənin monetar siyasətinin səmərəliliyinin artmasına kredit təşkilatlarının inkişafı tələbləri nəzərə alınmaqla bank fəaliyyətinin tənzimlənməsinin inzibati mexanizmləri sahəsindəki islahatlar kömək edir. Bu baxımdan, bankların cari və gələcək hədəflərinin elmi əsaslılığı, onların balanslaşdırılması, bank idarəçiliyinin təşkilati strukturunun təkmilləşdirilməsi həmin fəaliyyət sahəsində inzibati təsir rıçaqlarından daha səmərəli istifadə edilməsini tələb edir.

**Nəticə**

Beləliklə monetar siyasətin əsas xüsusiyyətlərini və onun üstünlüklərini nəzərə alaraq təkmilləşdirilməsi istiqamətləri təklif edə bilərik:

– dövlətin iqtisadi inkişafına kömək edəcək zəruri şəraitin formalaşdırılması;

– ölkənin iqtisadi artım templərinin yaxşılaşdırılması;

– dövlətin qızıl-valyuta ehtiyatlarının toplanması məqsədilə milli valyutanın möhkəmlənməsi üzrə tədbirlərin görülməsi;

– pul-kredit sferasının və iqtisadiyyatın

gücləndirilməsi istiqamətində tədbirlərin görülməsi;

– ölkənin monetar siyasəti sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsinə yönəlmiş tədbirlər kompleksinin reallaşdırılması;

– qiymətlərin sabitliyinin saxlanması, habelə inflyasiyanın azaldılması siyasətinin reallaşdırılması;

– investisiya fəallığının artırılması üzrə tədbirlərin görülməsi;

– nağd və nağdsız əməliyyatlara nəzarətin artırılması;

– kredit təşkilatları üçün tələb olunan ehtiyat normalarına və faiz dərəcələrinə yenidən baxılması;

– dövlət zəmanətlərinin verilməsi;

– pul sferasının iştirakçıları üçün informasiya dəstəyinin inkişafının artırılması;

– monetar siyasətin reallaşdırılmasında iştirakçılar arasında yüksək peşəkarlığın artırılması və s.

Monetar siyasətin təkmilləşdirilməsi istiqamətləri iqtisadi fəaliyyət sahələrinin optimallaşdırılması əsasında prioritet problemlərin həlli prosesinin təmin edilməsinə gətirib çıxarar.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Светличная, В.Ю. Денежно-кредитная политика: определение сущности и тенденций изменения / В.Ю. Светличная // Экономика и Финансы (Украина). – 2018. № 3, – с. 49-58.

2. Vəliyev, E.N. Maliyyə təhlükəsizliyinin təminatında monetar siyasətin prioritet istiqamətləri. İqtisad elmləri üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı, 2016, –36 s.

3. Ağalarova, N.A. Müasir monetar siyasət dövlət tənzimləməsi sistemində. AMEA İqtisadiyyat İnstitutu, Elmi əsərlər, №6, 2019, – s.208-213.

4. Минаков, А.В. Управление денежно-кредитной политикой на современном этапе развития государства / А.В. Минаков // Modern Economy Success. – 2020. № 3, – с. 221-226.

5. Hüseynov, X.Ə. Pul-kredit siyasəti və dayanıqlı iqtisadi inkişafda onun rolu. “Kooperasiya” elmi-praktiki jurnal, № 3 (46)-2017, – s.135-142.

6. Фролова, А.А. Роль денежно кредитной политики в регулировании национальной экономики / А.А. Фролова // Скиф. Вопросы студенческой науки. – 2019. № 4(32), – с. 323-327.

7. Зотович, И.Г. Методы и инструменты денежно-кредитной политики / И. Г. Зотович // E-Scio. – 2020. № 2(41), – с. 32-40.

8. Коноплева, Ю.А. Методы и инструменты денежно-кредитной политики / Ю.А. Коноплева, Д.А. Ашибокова // Проблемы развития экономических систем: вызовы современности: Материалы III Международной научно-практической конференции, Тамбов, 08–09 ноября 2018. – с. 168-173.

**Фахри Расим оглы САТТАРОВ**
докторант Азербайджанского Государственного Университета
Нефти и Промышленности,
E-mail: fakhrisattarov@gmail.com

# АНАЛИЗ ТЕКУЩЕГО СОСТОЯНИЯ ДЕНЕЖНО-КРЕДИТНОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ

**Резюме**

**Целью исследования** является анализ текущего состояния денежно-кредитной политики в Азербайджане. Для этого была дана характеристика денежно-кредитной политики и объяснена ее сущность. Далее были проанализированы процессы формирования и развития денежно-кредитной политики в Азербайджане. Рассмотрена роль различных инструментов денежно-кредитной политики, в том числе, ценных бумаг и валютных интервенций. Обобщены цели и функции существующих в мировом опыте инструментов денежно-кредитной политики. В контексте глобальных финансовых преобразований были даны рекомендации и внесены предложения по совершенствованию денежно-кредитной политики в Азербайджане.

**Методы исследования** – при подготовке статьи использовались различные научные методы, в том числе, метод анализа, синтеза, статистики и обобщения. Кроме них были учтены подходы ряда исследователей к современным проблемам денежно-кредитной политики и их решениям.

**Результаты исследования** - могут быть использованы при подготовке стратегии действий по совершенствованию механизмов и инструментов денежно-кредитной политики в Азербайджане в условиях новых вызовов и финансово-экономических преобразований.

**Ключевые слова:** Азербайджан, денежно-кредитная политика, ценные бумаги, валютная интервенция, основные функции денежно-кредитной политики, перспективы совершенствования денежно-кредитной политики.

**Fakhri Rasim SATTAROV**
doctoral student of Azerbaijan State Oil and Industry University,
E-mail: fakhrisattarov@gmail.com

## Analysis of the current state of monetary policy in Azerbaijan

**Summary**

The purpose of the research is to analyze the current state of monetary policy in Azerbaijan. A characteristic of monetary policy is given and its essence is considered for this purpose. Further, the processes of monetary policy formation and development in Azerbaijan are analyzed. The role of various monetary policy instruments, including securities and foreign exchange interventions, is considered. The goals and functions of the existing monetary policy instruments in the world experience are summarized. In the context of global financial transformation, recommendations and proposals to improve monetary policy in Azerbaijan are given.

Research methods - various scientific methods are used in the preparation of the article, including the method of analysis, synthesis, statistics and generalization. In addition to them, the approaches of a number of researchers to modern problems of monetary policy and their solutions are taken into account.

The results of the research can be used in the preparation of an action strategy to improve monetary policy mechanisms and instruments in Azerbaijan in the context of new challenges and financial and economic transformations.

**Key words:** Azerbaijan, monetary policy, securities, currency intervention, main functions of monetary policy, perspectives for improving monetary policy.

**Daxil olub:** 12.02.2023